# Son 17 il ərzində həyata keçirilən sosial-iqtisadi siyasət Azərbaycanın dayanıqlı inkişafını təmin edib





Qaradağ Rayon İcra Hakimiyyəti və Yeni Azərbaycan Partiyası (YAP) Qaradağ rayon təşkilatının birgə təşəbbüsü ilə "Azərbaycan tarixinə şərəf, ləyaqət, qürur səhifəsi yazan Ali Baş Komandan - İlham Əliyev" mövzusunda videokonfrans formatında tədbir keçirilib.

Tədbiri giriş sözü ilə YAP Qaradağ rayon təşkilatının sədri, partiyanın Siyasi Şurasının üzvü, millət vəkili Aydın Hüseynov açaraq bildirib ki, son 17 il ərzində Heydər Əliyev siyasətini bütün istiqamətlərdə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən səmərəli sosial-iqtisadi siyasət, dərin islahatlar strategiyası Azərbaycanın dayanıqlı inkişafını təmin edib, ölkəmizin qarşısında yeni perspektivlər açılıb. Azərbaycan xalqı Prezident İlham Əliyevin həyata keçirdiyi siyasəti birmənalı şəkildə dəstəkləyir, bu siyasətə alternativ görmür, əldə olunan uğurları yüksək qiymətləndirir. Prezident İlham Əliyevin siyasi fəaliyyətindən geniş bəhs edən A.Hüseynov, həmçinin Azərbaycanın milli maraqlarının yüksək səviyyədə qorunması naminə ölkə rəhbərinin uğurlu fəaliyyəti ilə bərabər güclü və müasir ordu quruculuğu, Vətən müharibəsində böyük zəfər qazanılması və ərazi bütövlüyünün təmin edilməsi uğrunda dövlətimizin başçısının misilsiz fəaliyyətindən danışıb. Millət vəkili qeyd edib ki, xalqımızın Prezident İlham Əliyevə, ordumuza sonsuz inamı, ölkəmizdə mövcud olan milli birlik qazanılan qələbənin əsaslarını təşkil edir.

Sonra Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı, YAP Qaradağ rayon təşkilatının sədr müavini Süleyman Mikayılov çıxış edərək vurğulayıb ki, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev bütün fəaliyyətində Azərbaycan xalqının iradəsini ifadə edir. Dövlətimizin başçısı Azərbaycanın tərəqqisini təmin edən strateji inkişaf paradiqmalarını dəqiq müəyyən edib. İlk növbədə, inkişafın milli - Azərbaycan modelinin formalaşdırılması, yeni keyfiyyət çalarları ilə zənginləşdirilməsi mühüm məqsəd və vəzifə kimi təsbit olunub, bu hədəfə çatmaq üçün həyata keçirilən məqsədyönlü tədbirlər səmərəli nəticələr verib.

S.Mikayılov qeyd edib ki, inkişafın Azərbaycan modelini dünyaya təqdim edən əvəzsiz Lider İlham Əliyev vətəndaşların sosial problemlərinin həllini prioritet tutmaqla yanaşı, həm də 30 ilə yaxın düşmən işğalında olmuş Azərbaycan torpaqlarını azadlığa qovuşdurdu.

Tədbirdə, həmçinin YAP Qaradağ rayon təşkilatının Şura üzvü, Ə.Əmirov adna NQÇİ-nin rəisi Fəxri Haqverdiyev və təşkilatın Gənclər Birliyinin sədri Seyidməmməd Məmmədzadə çıxış edərək Prezident İlham Əliyevin uğurlu siyasətinin əhəmiyyətindən bəhs ediblər.

# YAP Səbail rayon təşkilatında "Azərbaycan tarixinə şərəf, ləyaqət, qürur səhifəsi yazan Ali Baş Komandan - İlham Əliyev" mövzusunda videokonfrans keçirilib





Yeni Azərbaycan Partiyası (YAP) Səbail rayon təşkilatında Vətən müharibəsində Azərbaycan xalqının möhtəşəm tarixi qələbəsinin memarı, görkəmli dövlət xadimi, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasi fəaliyyətinə həsr olunan "Azərbaycan tarixinə şərəf, ləyaqət, qürur səhifəsi yazan Ali Baş Komandan - İlham Əliyev" mövzusunda videokonfrans keçirilib.

Rayon ictimaiyyəti nümayəndələrinin, ziyalıların, partiya veteranlarının və gənc fəalların iştirak etdiyi videokonfransda YAP Səbail rayon təşkilatının sədri Şəmsəddin Hacıyev, Azərbaycan Milli Kitabxanasının direktoru Kərim Tahirov, partiyanın rayon təşkilatının sədr müavini Mehman İsmayılov, aparat rəhbəri Zəfər Bayramov, İdarə Heyətinin üzvləri - "Səs" media qrupunun rəhbəri Bəhruz Quliyev, 132-134 saylı Təhsil Kompleksinin direktoru Sara Xanlarova, habelə Adilə Abbasova, Rayon Şurasının üzvləri - 6 saylı məktəb-liseyin direktoru Gülşən Orucova, 239 saylı orta məktəbin direktoru Sədaqət Əzimova, 50 saylı orta məktəbin direktoru Sədaqət Həsənova, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dekanı Elçin Əhmədov, "Təhsil tədqiqatçıları" (Azərbaycan Respublikasının Təhsil İnstitutu) ərazi ilk partiya təşkilatının sədri Piralı Əliyev, Qadınlar Şurasının sədri Təranə Kərimova, Gənclər Birliyinin sədri Riyad Rüstəmli, fəal gənclər Bəyim Nəbiyeva və Fuad Heydərli çıxış ediblər. Natiqlər adını müasir Azərbaycan tarixinə qızıl hərflərlə həkk edən Prezident İlham Əliyevin müstəqil daxili və xarici siyasətinin mühüm istiqamətlərini, o cümlədən mənfur düşmən üzərində qazanılmış inamlı, parlaq qələbəmizi təmin edən güclü, müasir ordu quruculuğunun və dinamik, dayanıqlı iqtisadi inkişafın Azərbaycan modelinin müxtəlif aspektlərini geniş təhlil ediblər.

YAP Səbail rayon təşkilatının sədri Şəmsəddin Hacıyev partiya təşkilatının çoxminli üzvləri adından Prezident, Ali Baş Komandan, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevi doğum günü münasibətilə təbrik edib. Qeyd olunub ki, 44 günlük Vətən müharibəsi dövründə Prezident İlham Əliyev döyüş meydanında, siyasi arenada, beynəlxalq informasiya mübarizəsində misilsiz uğurlara imza atıb, işğalçı Ermənistanın uydurmalarını, erməni miflərini dağıdıb, Azərbaycan xalqının qəhrəmanlığını, məğlubedilməzliyini, qələbə əzmini, işğalla heç bir zaman barışmadığını bütün dünyaya nümayiş etdirib. Bildirilib ki, Prezident İlham Əliyevin Azərbaycan xalqının milli maraqlarına xidmət edən fəaliyyəti Ulu Öndər Heydər Əliyevin siyasi kursunun uğurlu davamıdır.

**MÜŞFİQƏ**

# Praqmatik xarici siyasət kursu ölkəmizin beynəlxalq mövqeyinin daha da möhkəmlənməsini şərtləndirib





Yeni Azərbaycan Partiyası (YAP) Salyan rayon təşkilatı "Azərbaycan tarixinə şərəf, ləyaqət, qürur səhifəsi yazan Ali Baş Komandan - İlham Əliyev" mövzusunda videokonfrans keçirib. Videokonfransda çıxış edən YAP Salyan rayon təşkilatının sədri Rəşad Cəbrayılov bildirib ki, son 17 ildə ölkəmizdə həyata keçirilən uğurlu dövlət siyasəti kursu Azərbaycanın hərtərəfli inkişafını təmin edib. Onun sözlərinə görə, istər siyasi, istər iqtisadi, istərsə də hərbi sahədə qazanılan uğurlar nəticə etibarilə ölkəmizin ərazi bütövlüyünün təmin edilməsinə, torpaqlarımızın işğaldan azad olunmasına yol açıb: **"Sentyabrın 27-dən noyabrın 10-na kimi davam edən Vətən müharibəsi Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı. Müharibə dövründə müzəffər Ordumuzun şücaəti nəticəsində düşmənə böyük zərbə vuruldu və illərdir ki, işğalda saxlanan Azərbaycan torpaqları öz azadlığına qovuşdu. Həmin çətin günlərdə cənab İlham Əliyev Ali Baş Komandan kimi yüksək sərkərdəlik qabiliyyəti nümayiş etdirdi. Eləcə də cənab Prezidentimiz Azərbaycan həqiqətlərini dünyaya çatdırdı. Həmin günlərdə dünyanın aparıcı media orqanlarında ölkəmizin illərdir işğaldan əziyyət çəkdiyini, təcavüz nəticəsində günahsız insanların öldürüldüyünü bütün dünyaya çatdıran möhtərəm Prezidentimiz həm də erməni yalanlarını ifşa etdi".**

Tədbirdə çıxış edən YAP Salyan rayon təşkilatının İdarə Heyətinin üzvü Səlim Səlimağa, YAP Salyan rayon təşkilatı Qadınlar Şurasının üzvü Leyla Nəsirli və digərləri Prezident İlham Əliyevin apardığı uğurlu siyasi kursun ölkəmizi dünyada daha yaxından tanıtdırdığını, praqmatik xarici siyasət kursunun ölkəmizin beynəlxalq mövqeyinin möhkəmlənməsini şərtləndirdiyini diqqətə çatdırıblar.

**PƏRVİZ**

# YAP Göygöl rayon təşkilatı "İlham Əliyev qətiyyəti - 8 Noyabr Zəfər Günü! Möhtəşəm parad!" mövzusunda elmi-praktiki videokonfrans keçirib





Göygöl Rayon İcra Hakimiyyətinin (RİH) və Yeni Azərbaycan Partiyası (YAP) Göygöl rayon təşkilatının birgə təşkilatçılığı ilə "İlham Əliyev qətiyyəti - 8 Noyabr Zəfər Günü! Möhtəşəm parad!" mövzusunda elmi-praktiki konfrans keçirilib.

Tədbirdə çıxış edən YAP Göygöl rayon təşkilatının sədri Turani Əliyev düşmən təxribatına cavab olaraq Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə başlanan, ərazi bütövlüyümüzün bərpa edilməsi ilə nəticələnən Vətən müharibəsinin əhəmiyyətindən danışıb. T.Əliyev qeyd edib ki, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusu 44 gün ərzində Ermənistan silahlı qüvvələrini darmadağın etdi, torpaqlarımız işğaldan azad olundu: **"Ali Baş Komandan Vətən müharibəsində Böyük Qələbəni xalqımıza bəxş etməklə, eyni zamanda, "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur" deyən Ulu Öndərin arzusunu reallaşdırdı".**

Videokonfransda çıxış edən Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu vurğulayıb ki, Prezident İlham Əliyevin Azərbaycanın müdafiə qabiliyyətinin artırılması istiqamətində həyata keçirdiyi davamlı və məqsədyönlü siyasət böyük qələbəni şərtləndirib: **"Ordu quruculuğu sahəsində həyata keçirilmiş islahatlar, habelə şəxsi heyət arasında hərbi-vətənpərvərlik ruhunun artırılması, ordumuzun ən müasir hərbi texnika ilə silahlandırılması, yüksəkixtisaslı, peşəkar zabit korpusunun formalaşdırılması Azərbaycana böyük zəfər qazandırdı".**

Videokonfransda digər çıxış edənlər YAP Göygöl rayon təşkilatı Qadınlar Şurasının sədri Nuranə Quliyeva, Nadil kənd tam orta məktəb ərazi ilk partiya təşkilatının sədri Lilpar Verdiyeva və Xəqani kənd bələdiyyəsi ərazi ilk partiya təşkilatının sədri Adil Qarayev Ali Baş Komandanın, xalqımızın və ordumuzun qazandığı böyük tarixi qələbədən, Prezidentin Sərəncamı ilə təsis edilmiş 8 Noyabr - Zəfər Gününün əhəmiyyətindən bəhs ediblər.

# Prezident İlham Əliyevin qətiyyəti, dəmir iradəsi, uğurlu daxili və xarici siyasəti Vətən müharibəsində Qələbəni şərtləndirən amillərdir



Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin yenilməz qətiyyəti, dəmir iradəsi, yürütdüyü uğurlu daxili və xarici siyasət, qəbul etdiyi qərarlar, atdığı addımlar, diplomatik manevrləri Vətən müharibəsində qazandığımız Qələbəni şərtləndirən başlıca amillərdir.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu fikir Yeni Azərbaycan Partiyası (YAP) Ağcabədi rayon təşkilatında "Azərbaycan tarixinə şərəf, ləyaqət, qürur səhifəsi yazan Ali Baş Komandan İlham Əliyev" mövzusunda onlayn keçirilən elmi-praktik konfransda səsləndirilib.

Konfransda məruzə edən YAP Ağcabədi rayon təşkilatının sədri Rövşən Əhmədov bildirib ki, Prezident İlham Əliyev işğal altındakı torpaqlarımızın azad olunması üçün daim çalışıb, beynəlxalq tədbirlərdə Azərbaycanın haqq sözünü dünya liderlərinə və münaqişənin danışıqlar yolu ilə həll edilməsinə cavabdeh olan ATƏT-in Minsk qrupunun həmsədrlərinə çatdırıb. Lakin münaqişənin həlli uzadılır, həmsədrlər status-kvonu qoruyub saxlamağa çalışırdılar. BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxarılmasına dair qətnamələrinin tələbləri yerinə yetirilmirdi. Belə bir vəziyyət Prezidentimizi qane edə bilməzdi.

R.Əhmədov dövlətimizin başçısının rəhbərliyi ilə Azərbaycanın iqtisadiyyatının inkişaf etdirildiyini, ordumuzun daha da gücləndirildiyini, ən müasir silah və texnikaların alındığını diqqətə çatdırıb. Bildirib ki, həm diplomatik sahədə, həm də informasiya mübarizəsində Prezidentimiz gərgin işləyir, xalqımızın haqq səsini dünya birliyinə çatdırırdı. Ermənistan silahlı qüvvələrinin sentyabrın 27-də növbəti hərbi təxribatlarına cavab olaraq Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun həyata keçirdiyi əks-hücum əməliyyatları Azərbaycanın Böyük Qələbəsi ilə nəticələndi. Vətən müharibəsindəki Qələbə xalqımızın üzərindən məğlub, torpaqları işğal altında qalan, qaçqın və məcburi köçkün sözünü götürdü. Ölkəmizdə xalq-dövlət-ordu birliyinin ən yüksək səviyyədə olduğunu bir daha göstərdi. Vətən müharibəsinin əhəmiyyəti, mahiyyəti və nəticələri hələ uzun müddət təhlil ediləcək, bu Qələbənin şəninə dastanlar, bədii və elmi əsərlər yazılacaq, filmlər çəkiləcək.

Konfransda YAP Ağcabədi rayon təşkilatı qadınlar şurasının sədri Radə Qafarova, Qarabağ müharibəsi qazisi Mehdi Mehdiyev, Ağcabədi bələdiyyəsinin sədri Solmaz Rəhimova, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filialının direktor müavini Mahir Səlimov və başqaları çıxış edərək Prezident İlham Əliyevi Ulu Öndər Heydər Əliyevin siyasi kursunun uğurlu davamçısı, Azərbaycanın dövlət müstəqilliyinin, ərazi bütövlüyünün qarantı, xalqın sosial problemlərinin həllini daim diqqətdə saxlayan, güclü və modern ordu qurucusu, işğal altındakı torpaqlarımızı 44 gündə qaytarmağa nail olan qətiyyətli sərkərdə olduğunu qeyd ediblər.

Konfransda YAP Ağcabədi rayon təşkilatının aparat rəhbəri Nazim Bünyadov Vətən müharibəsi dövründə hamının bir yumruq kimi birləşərək arxa cəbhədə də orduya dəstək olduğunu bildirib.

# Prezident İlham Əliyevin Azərbaycana qazandırdığı tarixi Qələbə ən yeni tariximizə qızıl hərflərlə yazıldı





Yeni Azərbaycan Partiyası (YAP) Samux rayon təşkilatında ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasi fəaliyyətinə həsr olunan "Azərbaycan tarixinə şərəf, ləyaqət, qürur səhifəsi yazan Ali Baş Komandan - İlham Əliyev" mövzusunda videokonfrans keçirilib.

Tədbiri giriş sözü ilə YAP Samux rayon təşkilatının sədri Gündüz Bayramov açaraq bildirib ki, Azərbaycan dövlətinin suverenliyinin, ərazi bütövlüyünün tam bərpa olunmasında, Azərbaycanın haqq səsinin dünyaya çatdırılmasında cənab Prezidentin xidmətləri əvəzsizdir. Məhz ölkə Prezidenti İlham Əliyevin Azərbaycana qazandırdığı tarixi Qələbə Azərbaycanın ən yeni tarixinə qızıl hərflərlə yazıldı.

Sonra videokonfransda YAP Samux rayon təşkilatı Qadınlar Şurasının sədri Kəmalə Xəlilova, rayon təşkilatı Gənclər Birliyinin sədri Rəşid Şabanov və Şura üzvləri çıxış ediblər.

Qeyd olunub ki, Müzəffər Ali Baş Komandanımız 44 günlük Vətən müharibəsi dövründə dünyanın nüfuzlu telekanallarına, aparıcı informasiya agentliklərinə verdiyi çoxsaylı müsahibələrində ölkəmizi, xalqımızı bütün dünyaya yenidən təqdim etdi. Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm nailiyyətlər qazanaraq qalib dövlətə çevrilib.

**MÜŞFİQƏ**